# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA KİTAB MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDAKI ROLU

***Nəsibə Məhəmməd qızı Murtuzayeva***
*AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutu,*
*böyük laborant*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*murtuzayevanesibe@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, Azərbaycan mədəniyyəti, Heydər Əliyev, kitab, kitabxana*
***Ключевые слова:*** *Азербайджанская литература, азербайджанская культура, Гейдар Алиев, книга, библиотека*
***Keywords:*** *Azerbaijani literature, Azerbaijani culture, Heydar Aliyev, book, library*

**Xülasə:** Kitab mədəniyyətini Azərbaycan mədəniyyətinin əsas tərkib hissələrindən biri olduğunu qeyd edən Heydər Əliyev onu xalqın böyük milli-mənəvi sərvəti hesab etmişdir. Çünki kitab mədəniyyəti mədəni-mənəvi dəyərlərin qorunmasını və təbliğini özündə cəm edərək, zəngin tariximizin və mədəniyyətimizin araşdırılmasına və təbliğinə diqqət yetirməsini, qədim əlyazmaların qorunmasını, öyrənilməsini labüd edirdi. Heydər Əliyevin dünyanın müxtəlif kitabxanalarında saxlanılan materiallarda Azərbaycanın tarixinə və mədəniyyətinə aid olan əlyazmaların toplanılıb respublikamıza gətirməsi sayəsində ədəbiyyatımızın və mədəniyyətimizin xilası yolunda mühüm addımlar atıldı və bu tədbirlər Azərbaycanın beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrində mühüm rol oynadı. Dahi şəxsiyyət milli-mənəvi dəyərlərimizin qorunması məqsədilə kitab mədəniyyətimizdə şair, mütəfəkkir Nizami Gəncəvinin irsini əbədiləşdirmək, təbliğ olunmasını və yayılmasını təmin etmək üçün bütün vacib tədbirlərin görülməsi tapşırığını vermişdir.

**Резюме:** Гейдар Алиев, отмечавший, что книжная культура является одной из основных составляющих азербайджанской культуры, считал ее великим национальным и духовным богатством народа. Поскольку книжная культура подразумевает защиту и популяризацию культурных и духовных ценностей, она требует изучения и популяризации нашей богатой истории и культуры, а также сохранения и изучения древних рукописей. Благодаря сбору Гейдаром Алиевым рукописей, связанных с историей и культурой Азербайджана, из материалов, хранящихся в различных библиотеках мира, и привозу их в нашу республику, были предприняты важные шаги на пути спасения нашей литературы и культуры, и эти меры сыграли важную роль в международных двусторонних и многосторонних отношениях Азербайджана. Великая личность поручила принять все необходимые меры для обеспечения увековечения, популяризации и распространения наследия поэта и мыслителя Низами Гянджеви в нашей книжной культуре, в целях защиты наших национальных и духовных ценностей.

**Summary:** Noting that book culture is one of the main components of Azerbaijani culture, Heydar Aliyev considered it a great national and spiritual wealth of the people. Because book culture, combining the protection and promotion of cultural and spiritual values, required attention to the study and promotion of our rich history and culture, the preservation and study of ancient manuscripts. Thanks to Heydar Aliyev's collection of manuscripts related to the history and culture of Azerbaijan from materials stored in various libraries of the world and bringing them to our republic, important steps were taken towards the salvation of our literature and culture, and these measures played an important role in the international bilateral and multilateral relations of Azerbaijan. The great personality instructed to take all necessary measures to ensure the perpetuation, promotion and dissemination of the heritage of the poet and thinker Nizami Ganjavi in our book culture in order to protect our national and spiritual values.

Azərbaycanda kitab mədəniyyətinin himayədarı güclü dövlət xadimi, siyasi xadim, ensiklopedik biliyə malik tarixi şəxsiyyət Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını, tarixə, ədəbiyyata, mədəniyyətə, incəsənətə dair biliklərini artırmağın yolunu kitabda görürdü. Buna görə də, Azərbaycanda kitab mədəniyyətinin geniş təbliğ edilməsi, kitabçılıq işi, kitab və onun nəşri məsələləri onun diqqət və qayğısı altında olan məsələlərin ən başlıcası olmuşdur. Onun kitab mədəniyyətinə göstərdiyi diqqət sayəsində Azərbaycan elmi, mədəniyyəti, ədəbiyyatı dərindən tədqiq olunmuşdur. Kitab mədəniyyətini dərindən bilən, onu böyük məhəbbətlə sevən və yüksək qiymətləndirən Heydər Əliyev Azərbaycanın ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, elminin uğurlarının əsas səbəbini xalqımızın kitaba olan sonsuz sevgisində olduğunu bildirirdi. Heydər Əliyevin Azərbaycanda kitab mədəniyyətini inkişaf etdirməsi nəticəsində mədəni abidəmiz və milli sərvətimiz olan “Kitabi-Dədə Qorqud” dastanı dünyaya tanıdıldı və tariximizin, etnik yaddaşımızın, arxaik təfəkkürümüzün güzgüsü Azərbaycan ədəbiyyatının ayrılmaz bir parçası kimi qəbul olundu. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan Heydər Əliyev söz sənətimizə, ozan-aşıq sənətimizə, yazılı ədəbiyyatımıza fəaliyyəti dövründə xüsusi yüksək qiymət vermiş və inkişafına qayğı ilə yanaşmışdır. Kitab mədəniyyətini Azərbaycan mədəniyyətinin əsas tərkib hissələrindən biri olduğunu qeyd edən Heydər Əliyev onu xalqın böyük milli-mənəvi sərvəti hesab etmişdir. Çünki kitab mədəniyyəti mədəni-mənəvi dəyərlərin qorunmasını və təbliğini özündə cəm edərək, zəngin tariximizin və mədəniyyətimizin araşdırılmasına və təbliğinə diqqət yetirməsini, qədim əlyazmaların qorunmasını, öyrənilməsini labüd edirdi. Heydər Əliyevin dünyanın müxtəlif kitabxanalarında saxlanılan materiallarda Azərbaycanın tarixinə və mədəniyyətinə aid olan əlyazmaların toplanılıb respublikamıza gətirməsi sayəsində ədəbiyyatımızın və mədəniyyətimizin xilası yolunda mühüm addımlar atıldı və bu tədbirlər Azərbaycanın beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrində mühüm rol oynadı. Dahi şəxsiyyət milli-mənəvi dəyərlərimizin qorunması məqsədilə kitab mədəniyyətimizdə şair, mütəfəkkir Nizami Gəncəvinin irsini əbədiləşdirmək, təbliğ olunmasını və yayılmasını təmin etmək üçün bütün lazimi tədbirlərin görülməsi tapşırığını vermişdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanda kitab mədəniyyətinin onun həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsindəki, təbliğindəki, gələcək nəsillərə çatdırılmasındakı əhəmiyyətini əsas gətirərək, bu sahəyə daha çox önəm verilməsini diqqət mərkəzində saxlayaraq, bu zəngin irsin qorunmasında və gələcək nəsillərə ötürülməsində əsas rol oynamışdır. Kitabların beynəlxalq əhəmiyyətini xüsusi qiymətləndirən dahi şəxsiyyət bu işin şərəfli və məsuliyyətli bir iş olduğunu həmişə vurğulamışdır. Azərbaycanda kitab mədəniyyəti vasitəsilə xalqımızın irsinin öyrənilməsi və təbliği sahəsində müxtəlif xarici ölkələrdə və respublikamızda beynəlxalq və respublika səviyyəli atılan addımlar sayəsində gənclərin vətənpərvərlik, öz millətinə, xalqına sevgi, milli mənəvi dəyərlərə sayğı hissi ilə tərbiyə olunmasında çox mühüm irəliləyişlər əldə olunmuşdur. Rasim Süleymanov “Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti” adlı monoqrafiyasında Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, elminin və təhsilinin inkişafındakı misilsiz xidmətlərini geniş şəkildə araşdırmışdır. “Tarixdən məlumdur ki, hər bir xalq özünün taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərin zəngin ömür yolunu, mükəmməl dövlətçilik və siyasi irsini, təcrübəsini öyrənərək gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl iş aparır. Azərbaycan xalqı da öz taleyində misilsiz rol oynamış Ulu öndərin xatirəsini daim əziz tutmuş, onun əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atmışdır. Prezident İlham Əliyev Ulu öndərin əsasını qoyduğu strateji siyasi kursunu artıq 17 ildən çoxdur ki, bütün sahələrdə inamla davam etdirməklə yanaşı, Heydər Əliyev ideyalarının cəmiyyətdə praktik surətdə gerçəkləşməsinə va möhkəmlənməsinə xidmət edən ciddi addımlar atmışdır. Dövlət başçısının hələ 2001-ci ildə imzaladığı fərmanla Ulu öndərin adının əbədiləşdirilməsi istiqamətində bir sıra vacib tədbirlər həyata keçirilmiş, hələ 70-30-ci illərdə tikintisinə əzmlə nail olduğu bir sıra möhtəşəm binalara onun adı verilmişdir. 2004-cü ildən fəaliyyət göstərən Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə əsaslanaraq

Ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır" [5, s.60]. Dahi şəxsiyyət Heydər Əliyev həyatı və fəaliyyəti boyunca kitaba böyük qiymət vermiş və filosofları, mədəniyyətşünasları, tədqiqatçıları, dilçiləri, tarixçiləri, yazıçıları, şairləri, ictimai-siyasi xadimələri, ədəbiyyatşünasları, kitabşünasları, kitabxanaşünasları, sosioloqları, iqtisadçıları, alimləri, yaradıcı ziyalıları bu sahənin tərəqqisi üçün mümkün olan bütün tədbirlərin icra olunmasına səsləmişdir. Onun bu addımları sayəsində mədəniyyətimizdə kitab nəşrləri sahəsində böyük nailiyyətlər əldə olunmuşdur.

**Ədəbiyyat**


1. *Əliyev, Qabil.* Ümummilli lider Heydər Əliyev haqqında dəyərli elmi-tədqiqat əsəri: [Bakı Dövlət Universitetinin dosenti Rasim Süleymanovun yeni monoqrafiyası haqqında] / Q. Əliyev // Ədalət.- 2020.- 8 dekabr.- № 162.- S. 5.
2. Heydər Əliyev irsinin kitabxanalarda təbliği: respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. L. Əhmədova; elmi red. K. M. Tahirov; red. A. Abdullayeva.- Bakı: Azərbaycan Milli Kitabxanası, 2018.- 53 s.
3. *Xələfov, Abuzər Alı oğlu.* Heydər Əliyev və Azərbaycanda kitabxana işi / A. A. Xələfov; elmi red. T. X. Musayeva; red.: K. İ. Aslan, L. A. Məmmədova.- Bakı: Azərnəşr, 2006.- 312 s.
4. *Rasim Süleymanov.* Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti: Monoqrafiya.- Bakı, 2020.- 360 s.
5. *Tahirov, Kərim Məhəmməd oğlu.* Heydər Əliyev və Milli Kitabxana / K. M. Tahirov; elmi red. Ə. İsmayılova; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası.- Bakı: Şərq-Qərb, 2022.- 180 s.